No: 01 2026
https://doi.org/10.64400/ea26-01-23
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# MİL-MUĞAN İQTİSADİ RAYONUNDA ƏHALİNİN MƏŞĞULLUQ STRUKTURU VƏ ONUN SƏMƏRƏLİ TƏŞKİLİ YOLLARI

**Musa VƏLİYEV**
ETN Coğrafiya İnstitutu, PHŞ, Bakı, Azərbaycan
*Yazışılan müəllif: musavaliyev77@gmail.com*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 03.03.2026*
*Nəşr edilmə tarixi: 17.03.2026*

**Açar sözlər:** məşğulluq strukturu, əmək ehtiyatları, iqtisadi rayon, kənd təsərrüfatı, iqtisadi islahatlar.

**XÜLASƏ**
Əhalinin məşğulluq strukturunun formalaşması təsərrüfat sahələrinin inkişafı və bu sahələrdə çalışan insanların sayı ilə müəyyən edilir. Bu zaman təsərrüfatın inkişaf səviyyəsi də aparıcı amillərdən biri kimi özünü göstərir.
Regionlarda kənd məskunlaşmasının aparıcı yer tutması, kənd təsərrüfatının inkişafı onunla əlaqəli olan sahələrin də məşğulluqda üstün yer tutmasına gətirib çıxarır. Müstəqilliyin ilk illərində başlanan çətinliklərin aradan qaldırılması üçün aparılan islahatlar hələlik regionlarda məşğulluq strukturuna ciddi təsir göstərə bilmir. Uzun illərdir ki, kənd təsərrüfatı məşğulluqda əsas yer tutur, baxmayaraq ki, bu sahə Ümumi daxili məhsul məhsullarının az bir hissəsini verir. Ona görə məşğulluğun səmərəli strukturuun təşkili üçün regionlarda, o cümlədən Mil-Muğan iqtisadi rayonunda yüngül və yeyinti sənayesi kimi əmək tutumlu sahələrin, xidmət sahələrinin əhəmiyyətinin artırılması, yeni obyektlər şəbəkəsinin və iş yerlərinin sayının çoxaldılmasına şərait yaradılması mühüm vəzifə kimi qarşıda durur. Bu istiqamətdə tədbirlərin elmi-nəzəri əsaslarının da işlənib hazırlanması mühüm əhəmiyyət kəsb edir. Tədqiqat zamanı iqtisadi rayonda əhalinin iş yerləri ilə təminatının vacibliyi göstərilir, onların demoqrafik potensiala uyğun olmasının əhəmiyyəti, onun strukturunun daimi olaraq yenidən qurulması istiqamətində tədbirlərin rolu, yeni açılan iş yerlərinin təsərrüfat sahələri üzrə paylanması müəyyən olunur. Məşğulluq strukturunun yenidən qurulması üçün məqalədə təkliflər hazırlanmışdır.

## GİRİŞ

Əhali təsərrüfat sahələrində məşğul olmaqla ayrı-ayrı sahələrin və əhalinin müxtəlif çeşidli tələbatını ödəyən məhsullar istehsal edilir, gündəlik və vaxtaşırı xidmətlərə olan tələbatı ödənilir. Eyni zamanda məşğulluq əhalini gəlir mənbələri ilə təmin edir, özünün sosial-mədəni, mənzil-kommunal və yaşayış şəraitini qurur, ailənin tələbatını ödəyir.

Təsərrüfat sahələrində məşğulluq onun sahə və ərazi strukturundan, tarixi-coğrafi inkişaf xüsusiyyətlərindən, şəhər və kənd məskunlaşmasının inkişafından, məntəqələrin yerinə yetirdiyi funksiyalardan, İCM-dən, ətraf ərazilərdə faydalı qazıntıların yerləşməsindən və onlardan istifadə edilməsi imkanlarından, demoqrafik potensialdan, o cümlədən ixtisaslı kadrlardan və əmək təcrübəsindən asılıdır.

Dünyada, o cümlədən Azərbaycanda ənənəvi təsərrüfat sahələrinin fəaliyyəti hazırda da aparıcı olaraq qalır və əhalinin məşğulluğunda əhəmiyyətli yer tutur. Eyni zamanda elm, texnika və texnologiya inkişaf edir, əhalinin gəlirləri, təhsili, ixtisas-peşə səviyyəsi yüksəldikcə müxtəlif məhsullara və xidmətlərə tələbatı artır. Bu sahələrdə tələbatın ödənilməsi üçün obyektlər yaradılması ilə əhalinin məşğulluq strukturu da dəyişir, ixtisaslı kadrlara tələbat yüksəlir.

Təsərrüfatın sahə strukturu və onun nəticəsi kimi məşğulluq quruluşunun dəyişməsi ictimai-siyasi proseslər, iqtisadi islahatlar, yeni faydalı qazıntı yataqlarının istismarı və bunun əsasında emal müəssisələrinin tikilməsi qısa vaxt ərzində baş verir. Məhz bu amillərin təsiri ilə XX əsrin sonu, XXI əsrin əvvəllərindən başlayaraq ölkənin regionlarında əhalinin məşğulluq strukturu ciddi şəkildə dəyişikliyə məruz qalmışdır. Baş verən iqtisadi çətinliklər, əlaqələrin pozulması, texnika və texnoloji avadanlıqların istismar müddətinin başa çatması rəqabət qabiliyyətli məhsullar istehsal edilməsinə imkan vermirdi. Regionlarda aqrar islahatlar aparılması ilə kiçik pay torpaqlarına malik kəndli-fermer təsərrüfatları yaradılması yüngül və yeyinti obyektlərinin xammallar ilə təminatında çətinliklər

yaradırdı. Nəticədə əhalinin məşğulluğunda əhəmiyyətli yer tutan bu sahələrə aid obyektlərin fəaliyyəti dayandı, əhali iş yerlərini və gəlir mənbələrini itirdi.

Aparılan iqtisadi islahatlar təsərrüfatın aparıcı sahələri olan sənaye, kənd təsərrüfatı, nəqliyyat və xidmət sahələrində müəyyən tədbirlər həyata keçirilmiş olsa da, əvvəllər mövcud olmuş sahələrin və onlara aid olan təsərrüfat obyektlərinin fəaliyyətini bərpa etmək işləri zəif templə aparılır. Ona görə uzun illər ərzində əhalinin məşğulluq strukturunda əsaslı dəyişikliklər zəif templə gedir. Bununla yanaşı, əhalinin məşğulluq quruluşunun öyrənilməsi, onun səmərəli təşkili yollarının hazırlanması, elmi cəhətdən əsaslandırılmış təkliflər və tövsiyələrin verilməsi daim aktualdır.

**TƏDQİQAT OBYEKTİ**

Mil-Muğan iqtisadi rayonunun tərkibinə Beyləqan, İmişli, Saatlı, Sabirabad inzibati rayonları daxildir. Onun sahəsi 5,67 min $km^2$-dir ki, bu da ölkə ərazisinin 6,55%-ni əhatə edir (Azərbaycanın demoqrafik göstəriciləri, 2024, s. 78). Əhalisinin sayı 2025-ci ilin əvvəli üçün 527,5 min nəfərdir (Azərbaycanın əhalisi, 2024, s. 70). Ölkə əhalisinin 5,16%-i iqtisadi rayonun payına düşür. Regionun şəhər əhalisinin sayı 134,2 min nəfər və ya 25,4%, kənd əhalisinin sayı 393,3 min nəfərdir. Burada 4 şəhər, 18 qəsəbə, 190 kənd məntəqəsi mövcuddur (Azərbaycanın əhalisi, 2024,s. 68-70)

İqtisadi rayon Kür-Araz ovalığında, Kür və Araz çaylarının arasını əhatə edən Mil düzündə, hər iki çayın sağ sahilində ayrılan Muğan düzündə yerləşir (Azərbaycan Respublikasının coğrafiyası, 2015, s. 265). Sabirabad rayonun bir hissəsi Şirvan düzündə yerləşir (Eminov Z.N., 2021). İqtisadi rayonda kəndlərin yerləşməsində Kür və Araz çayları mühüm əhəmiyyət kəsb edir.

İqtisadi rayon ölkənin təsərrüfatında kənd təsərrüfatı məhsullarını emal edən yeyinti sənayesi məhsullarının istehsalına görə fərqlənir. Kənd təsərrüfatında taxılçılıq, pambıqçılıq, bostançılıq-tərəvəzçilik, meyvəçilik və heyvandarlıq aparıcı sahələrdir. Ərazilərdən axan çaylar və onlar üzərində yaradılan su anbarları, suvarma kanalları istiliksevən kənd təsərrüfat məhsullarının becərilməsi üçün istifadə edilir.

Mil-Muğan iqtisadi rayonunda təsərrüfat sahələri (taxılçılıq, pambıqçılıq, bostançılıq-tərəvəzçilik, meyvəçilik) əhalinin məşğulluğun təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, mövcud iş yerləri demoqrafik potensialdan geri qalır. Ona görə davamlı olaraq yeni iş yerlərinin açılması lazım gəlir, məsələnin həlli üçün Dövlət Proqramları qəbul edilmişdir (Eminov Z.N., 2023).

**Mövzunun öyrənilməsi**

Azərbaycanın və ayrı-ayrı regionların demoqrafik potensialı və əhalinin məşğulluq quruluşunun öyrənilməsi üçün tədqiqatlar XX əsrin ikinci yarısından sonra başlanmışdır. Bu sahədə tədqiqatlar Ə.M.Hacızadə (1965), A.A.Nadirov (1976), Ş.M.Muradov (1987), E.Q.Mehrəliyev, N.H.Əyyubov (1988), R.H.Məmmədov (1989) və b. alimlər tərəfindən aparılmışdır.

Müstəqillik illərində bu sahədə aparılan tədqiqatlarda regionların təbii-coğrafi şəraiti və ehtiyatları, təbii-iqtisadi potensialının qiymətləndirilmiş, demoqrafik inkişafın əsas meyilləri, inkişafın nizamlanması istiqamətləri üzrə tədqiqatlar aparılmışdır. Bu dövrdə Azərbaycanın əhalisi və əmək ehtiyatlarının öyrənilməsi sahəsində Ş.M.Muradovun (2004), V.Ə.Əfəndiyev (2010), Z.N.Eminov (2005, 2010, 2023), H.M.Tahirova (2021), N.H.Əyyubov (9, 10, 2022), E.S.Bədəlov (10, 2021) və b. tədqiqatları vardır. Son dövrlərdə regionlarda həyata keçirilən tədbirlər yeni təsərrüfat obyektlərinin yaradılmasına, sosial-mədəni xidmət obyektlərinin yenidən qurulmasına imkan vermişdir. Ona görə bu sahədə tədqiqatların davam etdirilməsi istiqamətində təkliflər hazırlanması mühüm əhəmiyyət kəsb edir.

**Material və metodlar**. Mil-Muğan iqtisadi rayonunda əhalinin məşğulluq strukturunun dəyişməsi sahəsində tədqiqat aparılmasında məqsəd iqtisadi islahatlar prosesində təsərrüfatın sahə və ərazi strukturunda baş verən dəyişikliklərin təsirini müəyyən etmək, onun nizamlanması sahəsində təkliflər hazırlamaqdır.

Bunun üçün riyazi-statistik materialların müqayisəli təhlilini apararaq tədqiqat həyata keçirilmişdir. Məqalənin hazırlanması üçün Azərbaycan Respublikası DSK tərəfindən əhali, əmək ehtiyatları, kənd təsərrüfatı, regionlar üzrə dövri statistik məlumatlarından (Azərbaycanın demoqrafik göstəriciləri - 2024. (2025)), hər 10 ildən bir aparılan siyahıyaalınmaların nəticələrindən istifadə olunmuşdur (AR əhalisinin siyahıyaalınması,2009). Eyni zamanda qəbul edilmiş Dövlət Proqramlarında olan müddəalar (Eminov Z.N., 2023), ölkənin əhalisi və əmək ehtiyatları sahələrində aparılan tədqiqatların elmi təhlilləri əsas mənbələr kimi qəbul edilmişdir.

**Mövzunun öyrənilməsi**

Mil-Muğan iqtisadi rayonu ölkənin kənd təsərrüfatı regionlarından biridir. Burada kənd təsərrüfatının aparıcı yer tutmasına yerləşdiyi ərazilərin təbii-coğrafi şəraiti, o cümlədən aqroiqlim ehtiyatları, su ehtiyatlarının olması, məhsuldar torpaqlar əlverişli imkanlar yaradır. Kənd təsərrüfatının uzun illər ərzində pambıqçılıq, taxılçılıq, tərəvəzçilik, heyvandarlıq üzrə ixtisaslaşması bu sahələr üzrə emal müəssisələrinin də yaradılmasına imkan vermişdir.

Müstəqilliyin ilk illərindən təsərrüfat obyektlərinin fəaliyyətində müəyyən çətinliklər olsa da, aparılan iqtisadi islahatlar prosesində onların bir hissəsi, o cümlədən pambıqtəmizləmə zavodlarının fəaliyyətini bərpa etmək mümkün olmuşdur. Ona görə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə əlaqədar olan sahələrin fəaliyyəti əhalinin məşğulluğunda əhəmiyyətli yer tutur.

İqtisadi rayonda əhalinin məşğulluq strukturu 2009 və 2019-cu illərin siyahıyaalınmasının nəticələrinə əsasən kənd əhalisi, 2025-ci ilin əvvəlinə görə ümumi əhali üzrə aparılır.

**2009-cu il** siyahıyaalınmasının nəticələri üzrə Mil-Muğan iqtisadi rayonunda məşğul olan ümumi əhalinin sayı 245,2 min nəfər, o cümlədən kənd əhalisinin sayı 193,1 min nəfər olmuşdur (Cədvəl 1). Bu isə ümumi əhalinin 78,7%-ni təşkil edir. İqtisadi rayonda ümumi əhalinin 55,1%-i, kənd əhalisinin 59,2%-i məşğul əhali kimi qeydiyyata alınmışdır (AR əhalisinin siyahıyaalınması,2009). Kənd əhalisi arasında məşğulluq səviyyəsinin yüksək olması kənd təsərrüfatında məşğul olan əhali kimi qeydə alınanların sayının çoxluğu ilə əlaqədardır. Onların böyük əksəriyyəti bu torpaqlardan istifadə etmir, kənd təsərrüfatı məhsulları istehsal edilmir. Belə ki, kəndlərdə **kənd təsərrüfatında** məşğul əhalinin payı 87,3% səviyyəsində olmuşdur (Cədvəl 1), mütləq hesabla isə bu 168,6 min nəfərdir (AR əhalisinin siyahıyaalınması,2009). Göstərici Azərbaycanın kənd əhalisi üçün olan (71,5%), iqtisadi rayonun ümumi əhalisi üçün olan orta göstəricidən (75,5%) xeyli yuxarıdır (Şəkil 1).

*Cədvəl 1*

**15 və yuxarı yaşda məşğul kənd əhalisinin iqtisadiyyatın sahələri üzrə bölgüsü., (2009), faizlə**

| İnzibati ərazilər | Cəmi məşğul əhali, | O cümlədən təsərrüfat sahələri üzrə | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Kənd və meşə təs-tı, ovçuluq | Sənaye | Tikinti | Ticarət | Nəqliyyat və rabitə | Xidmət sahələri | Digər sahələr |
| Beyləqan | 100,0 | 82,9 | 1,3 | 3,5 | 2,0 | 2,1 | 7,6 | 0,6 |
| İmişli | 100,0 | 89,7 | 1,9 | 1,3 | 0,9 | 0,9 | 4,9 | 0,4 |
| Saatlı | 100,0 | 88,4 | 1,3 | 1,7 | 1,3 | 0,9 | 5,4 | 1,0 |
| Sabirabad | 100,0 | 86,9 | 1,7 | 2,5 | 1,4 | 1,4 | 5,5 | 0,6 |
| İqtisadi rayon | 100,0 | 87,3 | 1,6 | 2,2 | 1,4 | 1,3 | 5,6 | 0,6 |
| Azərbaycan Res. | 100,0 | 71,5 | 2,6 | 6,2 | 4,5 | 3,1 | 10,8 | 1,3 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Ümumi əhali | | | | | | | | |
| İqtisadi rayon | 100,00 | 75,55 | 2,50 | 4,31 | 4,15 | 2,86 | 9,03 | 1,60 |
| Azərbaycan Res. | 100,00 | 40,99 | 5,97 | 10,91 | 10,32 | 6,99 | 20,84 | 3,98 |

*Mənbə: "Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması -2009" statistika məcmuəsi. XIII cild. Məşğul əhalinin iqtisadiyyatın sahələri üzrə bölgüsü. Səh.11-38. B.DSK, 2011.*

İnzibati rayonların kənd əhalisi arasında birlikdə kənd və meşə təsərrüfatı, ovçuluqda məşğulluq yüksək payı ilə fərqlənir, 80,0%-dən yuxarı qiymətlər alır. İmişli və Beyləqan rayonlarında hətta 88-90% səviyyəsinə qədər qalxır. Beyləqan rayonunda şəhərlər və qəsəbələrin çox olması digər sahələrdə məşğulluğa şərait yaranır. Ona görə kənd təsərrüfatında məşğulluq 82,9%-ə qədər aşağı enmişdir. İnzibati rayonlarda bu sahələrdə məşğul olanların sayı əhalinin ümumi sayından, iqtisadi potensialından və digər təsərrüfat sahələrinin inkişafından asılıdır. Bu amillərə uyğun olaraq kənd təsərrüfatında çalışanların 35,6%-i Sabirabad, 25,5%-i İmişli, 23,9%-i Saatlı, 15,0%-i Beyləqan rayonunun payına düşmüşdür (AR əhalisinin siyahıyaalınması,2009).

Kənd təsərrüfatında yüksək məşğulluq göstəriciləri səbəbindən digər sahələrdə çalışanların sayı azdır, onlar məşğulluq strukturunda aşağı payı ilə fərqlənir. Bunu nəzərə alaraq 2009-cu ildə iqtisadi rayonun kənd əhalisi arasında məşğul olanların payına görə ikinci yeri **xidmət sahələri** tutmuşdur və 5,6% təşkil edir (Cədvəl 1). Bu göstərici ölkənin kənd əhalisi üçün olan orta göstəricidən (10,8%) 2,0 dəfə aşağıdır, ölkənin ümumi əhalisi üçün olan səviyyədən isə 3,7 dəfə azdır.




Azərbaycan Respublikası İqtisadi rayon

***Şəkil 1. Məşğul kənd əhalisinin iqtisadiyyatın sahələri üzrə bölgüsü, (2009), faizlə***

Müstəqillik illərində regionlarda yerləşən şəhərlər, qəsəbələr və kəndlərdə xidmət göstərilməsi üçün müxtəlif sahələr üzrə çoxsaylı ticarət, məişət xidməti, turizm, mədəniyyət xidməti, mənzil-kommunal təsərrüfatı üzrə obyektlər yaradılmışdır. Lakin Bakı şəhəri və regionlar arasında pullu xidmətlər, məişət xidməti, digər gündəlik və dövri xidmətlərdə kəskin fərqlər olduğuna görə məşğulluq aşağı səviyyədə olaraq qalır.

İnzibati rayonlarda da xidmət sahələrində məşğulluq payı 5-6% arasında, Beyləqan rayonunda 7,6% səviyyəsindədir. Buna kəndlər və rayonda olan çoxsaylı qəsəbələr arasında əlaqələrin sıx olması əhəmiyyətli təsir göstərir.

Regionlarda əhəmiyyətli istehsal və xidmət obyektlərinin zəif şəbəkəsi **ticarətdə** məşğul olanların sayının artmasına gətirib çıxarmışdır. Nəticədə ölkənin ümumi əhalisi arasında məşğul əhalinin 10,32%-i, o cümlədən kənd əhalisi arasında 4,5%-i ticarət obyektlərində çalışır (Cədvəl 1).

Bununla yanaşı, Mil-Muğan iqtisadi rayonunda kənd əhalisi arasında məşğulluq strukturunda ticarət 1,4% payı ilə fərqlənir. Bu sahədə məşğulluğa obyektlər şəbəkəsinin sayı ilə yanaşı, əhalinin gəlirləri və alıcılıq qabiliyyəti də əhəmiyyətli təsir göstərən amil hesab olunur. İnzibati rayonlarda bu sahə 1,3-1,4% məşğulluq payı ilə fərqlənmişdir, Beyləqanda 2,0%-ə qədər artmışdır.

**Sənaye**, xüsusilə onun yüngül və yeyinti sahələri yüksək əməktutumlu olması ilə fərqlənsə də, Mil-Muğan iqtisadi rayonunun kənd məntəqələrində zəif inkişaf etməsi ilə fərqlənir. Kəndlərdə çox vaxt pambıqtəmizləmə, üzüm emalı, heyvandarlıq məhsullarının ilkin emalı üçün emal müəssisələri təşkil edilir (Paşayev. N.Ə., Əyyubov N.H.,Eminov Z.N., 2010) Lakin iqtisadi rayonda bu sahələrə aid obyektlər hələlik azdır. Ona görə kənd əhalisi arasında sənaye məşğulluq strukturunda cəmi 1,6% paya malik olmaqla (Cədvəl 1), mütləq hesabla 3,1 min nəfər çalışır (AR əhalisinin siyahıyaalınması,2009). Müqayisə üçün qeyd etmək olar ki, ölkənin ümumi əhalisi arasında sənayedə məşğulluq 5,97%, kənd əhalisi arasında 2,5% ilə seçilir. Regiona daxil olan inzibati rayonların kənd əhalisi arasında da sənayedə məşğulluq 1,3-1,9% səviyyəsində qeydə alınır və aşağı göstərici hesab oluna bilər.

XX əsrin sonu-XXI əsrin əvvəllərində aparılan islahatlar prosesində genişmiqyaslı tikinti işləri aparılır. Bu proseslər **tikinti materialları** sənayesinin inkişafını, bu sahədə çoxçeşidli məhsulların istehsalını tələb edir. Ona görə tikinti sektorunda məşğul olanların sayı da artır. 2009-cu ildə Mil-Muğan iqtisadi rayonunun kənd əhalisi arasında bura daxil olan obyektlərdə 4,2 min nəfər çalışmışdır (AR əhalisinin siyahıyaalınması, 2009). Onlar məşğul əhalinin 2,2%-ni təşkil etmişdir. Bununla yanaşı, onlar ölkənin ümumi və kənd əhalisi üçün olan orta göstəricidən 3-5 dəfəyə qədər azdır. Ona görə ki, tikinti işləri regionlarda, xüsusilə Bakı, Abşerona nisbətən aşağı templə aparılmışdır.

**Nəqliyyat** təsərrüfatın aparıcı sahələrindən biri olsa da, kənd əhalisinin məşğulluğunda əhəmiyyətli yer tutması imkanları məhduddur (Bədəlov E.S., 2016). Mil-Muğan iqtisadi rayonu kimi kənd məskunlaşmasının geniş yayıldığı regionlarda əksər kəndlər magistral yollardan uzaqda yerləşir, bu məntəqələrə asfalt yollar olmur, dəmir yolu regionda bir istiqamətli olmaqla fərqlənir. Mil-Muğan regionunda Bakıdan Qarabağa gedən avtomagistral xətti yerləşir, Hacıqabul-Horadiz dəmir yolu buradan keçir, ondan Ağcabədi şəhərinə də qol ayrılır. Bu nəqliyyat xətlərinə yaxın yerləşən kəndlərdə 2009-cu ildə əhalinin 2,5 min nəfəri nəqliyyat və rabitə sahələrində çalışmışdır. Bu sahələrin məşğulluqda payı 1,3% səviyyəsində olmuşdur (Cədvəl 1), ölkənin ümumi və kənd əhalisi üçün olan orta göstəricidən dəfələrlə aşağıdır.

2009-cu ildən sonra da ölkənin regionlarında iqtisadi islahatlar davam etmişdir. Bu proseslər çərçivəsində yeni istehsal və xidmət obyektləri yaradılmış, mövcud olmuş obyektlərin fəaliyyətinin bərpa edilməsi üçün tədbirlər həyata keçirilmişdir. Kənd təsərrüfatının inkişafı istiqamətində görülən işlər məhsul istehsalının artırılmasına da imkan vermişdir. Ona görə onların məhsullarının emalı üçün müəssisələr qurulması mümkün olmuşdur. Həyata keçirilən iqtisadi tədbirlər 2019-cu il siyahıyaalınmasının nəticələrində də məşğulluq strukturunun dəyişməsində özünü göstərir. Bu dövrə qədər artıq "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının" 4 mərhələsi yerinə yetirilmişdir. Onların nəticələri Mil-Muğan iqtisadi rayonunun inkişafına da öz təsirini göstərmişdir.

**2019-cu ildə** aparılmış son siyahıyaalınmanın nəticələrinə görə iqtisadi rayonda məşğul əhalinin sayı 244,8 min nəfər, o cümlədən kənd əhalisi arasında 185,1 min nəfər olmuşdur (Eminov Z.N, 2023). Onların payı 75,6% təşkil edir. Məşğul əhali regionun ümumi əhalisinin 48,4%-nə, kənd əhalisinin 49,4%-nə yaxındır (AR əhalisinin siyahıyaalınması, 2019). Lakin əhalinin məşğulluq səviyyəsi 2009-cu ilə nisbətən xeyli aşağıdır. 2009-2019-cu illərdə məşğul əhalinin sayı 393 nəfər, o cümlədən kəndlərdə 7911 nəfər az olmuşdur. Baxmayaraq ki, onillik dövrdə əhalinin sayı xeyli artmışdır. Buna görə ümumi əhalinin arasında da məşğulluq səviyyəsi aşağı enmişdir.

*Cədvəl 2*

**Məşğul kənd əhalisinin iqtisadi fəaliyyət növlərinə görə bölgüsü, 2019, faiz**

| İnzibati ərazilər | Cəmi məşğul əhali, | O cümlədən təsərrüfat sahələri üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Kənd və meşə təsərrüfatı, ovçuluq | Sənaye | Tikinti | Ticarət | Nəqliyyat və rabitə | Xidmət sahələri | Digər sahələrdə xidmət | fərdi istehlak mallarının istehsalı |
| Beyləqan | 100,0 | 69,0 | 1,4 | 2,0 | 2,9 | 1,4 | 8,3 | 1,2 | 13,8 |
| İmişli | 100,0 | 72,6 | 2,4 | 4,4 | 4,9 | 1,8 | 6,5 | 3,0 | 4,4 |
| Saatlı | 100,0 | 79,6 | 2,1 | 3,2 | 3,8 | 1,6 | 5,5 | 1,7 | 2,5 |
| Sabirabad | 100,0 | 77,9 | 1,3 | 3,5 | 3,9 | 1,9 | 5,2 | 2,2 | 4,1 |
| İqtisadi r-n | 100,0 | 75,5 | 1,8 | 3,3 | 3,9 | 1,7 | 6,1 | 2,1 | 5,6 |
| Azərbaycan | 100,0 | 59,7 | 2,5 | 6,0 | 6,6 | 2,8 | 10,7 | 3,4 | 8,3 |
| Ümumi əhali | | | | | | | | | |
| İqtisadi r-n | 100,0 | 67,3 | 2,2 | 4,1 | 6,3 | 2,6 | 9,1 | 2,7 | 5,7 |
| Azərbaycan | 100,0 | 35,9 | 7,3 | 7,4 | 14,4 | 5,4 | 19,2 | 5,4 | 5,0 |
| ***Xidmət sahələrinə*** *turizm, maliyyə, daşınmaz əmlakın idarə edilməsi, dövlət idarəetməsi, təhsil, elm, səhiyyə, sosial təminat aiddir* | | | | | | | | | |

*Mənbə: Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması – 2019. XIV cild. Məşğul olan əhalinin yaşa və yaş qruplarına görə iqtisadi fəaliyyət növləri üzrə bölgüsü. "Narıncı nəşriyyat evi" MMC, Bakı, DSK, 2022. 10-11, 70-89 s.*

Məşğul olanların sayı azalsa da, onun strukturunda keçən dövrdə əsaslı dəyişiklik olmamışdır (Cədvəl 2). Ümumilikdə, kənd və meşə təsərrüfatı ovçuluqla birlikdə məşğulluqda aparıcı rolunu saxlamışdır. Bununla yanaşı, iqtisadi rayonun ümumi əhalisi arasında 2009-2019-cu illərdə çalışanların sayı 20,5 min nəfər (11,1%), kənd əhalisi arasında 28,8 min nəfər (17,1%) azalmışdır. Regionun kənd təsərrüfatında məşğul olanların sayında olan azalmalara bir neçə amilin təsir etdiyini söyləmək olar:

- Kənd məntəqələrində iş yerləri ilə təminatda çətinliklər olması və əldə edilən gəlirlərin aşağı səviyyəsi ilə əlaqədar əmək qabiliyyətli yaşda olan əhali arasında miqrasiyalar davam etmiş və onların sayı da azalmışdır;
- Aparılan iqtisadi islahatlar prosesində digər sahələrdə yeni iş yerlərinin yaradılması ilə əlaqədar əhali bu sahələrdə məşğul olmağa çalışır;
- XX əsrin sonundan başlayaraq təbii artımın azalması ilə əlaqədar əmək qabiliyyətli qrupa daxil olan gənclərin sayı da ildən-ilə azalır. Ona görə əmək ehtiyatlarının sayı, onlar arasında məşğul əhalinin sayı da aşağı düşür.

Cədvəl 2-dəki materialların təhlili göstərir ki, iqtisadi rayonda kənd əhalisinin **kənd təsərrüfatında** məşğulluq səviyyəsi Azərbaycanın ümumi əhalisi üzrə olan orta göstəricidən 2,0 dəfə, kənd əhalisi üçün olan orta göstəricidən 15,8 vahid yuxarıdır. İnzibati rayonların kənd əhalisi

arasında bu sahələrin məşğulluqda payı Beyləqanda 69,0%, digər inzibati rayonlarda 70,0%-dən yuxarıdır, o cümlədən Saatlıda ən yüksək səviyyədə olaraq 79,6%-ə qalxır. Regionda kənd təsərrüfatında çalışanların 34,8%-i Sabirabad rayonunun, 26,8%-i Saatlı rayonunun, 21,4%-i İmişli rayonunun, 17,0%-i Beyləqan rayonunun payına düşür (AR əhalisinin siyahıyaalınması, 2019). İqtisadi rayonun kəndlərində **xidmət sahələrinin** əhalinin məşğulluğunda payı artmışdır. Ona görə ki, bu sahədə kəndlərdə yeni istiqamətlər üzrə obyektlər yaradılmış, o cümlədən şəxsi vəsaitlər hesabına xidmət mərkəzləri fəaliyyətə başlamışdır. 2019-cu ildə aparıcı xidmət sahələrinin payı 6,1% olmuşdur ki, bu da 2009-cu il səviyyəsindən az fərqlənir. Eyni zamanda əlavə xidmətlərdə məşğulluq (incəsənət, əyləncə, toxunulmazlıq xidməti) sahələrinin payı 2,1% olmuşdur. Xidmət sahələrində çalışanların sayı onillik dövrdə mütləq hesabla 4,4 min nəfər artmışdır (AR əhalisinin siyahıyaalınması, 2019). Bu isə digər sahələrə nisbətən xeyli yuxarı göstərici hesab olunur. Mil-Muğan iqtisadi rayonunun kənd əhalisi arasında xidmət sahələrində məşğulluq payı ölkənin kənd əhalisi üçün olan orta göstəricidən xeyli aşağıdır, ümumi əhaliyə nisbətəndə isə 3 dəfəyə qədər aşağıdır.

2019-cu ildə aparılmış əhalinin siyahıyaalınmasının nəticələrində xüsusi olaraq məşğulluq qrupu ayrılmışdır. Onlar **fərdi istehlak üçün məhsul istehsalı** ilə məşğul olanlardır, yəni şəxsi təsərrüfatlarda məşğul olur, özünün və ailəsinin istehlak tələbatını ödəmək üçün məhsullar hazırlayırlar.Yuxarıdakı Cədvəl 2-dən də göründüyü kimi, bu qrup əhalinin ölkədə ümumi sayı 237,5 min nəfər (5,0%), o cümlədən kənd əhalisi arasında 186,1 min nəfər (8,3%) olmuşdur. Kənd əhalisi arasında onların payının (78,4%) və məşğulluqda xüsusi çəkisinin çox olması kəndlərdə iş yerlərinin az olması və bu sahədə olan çətinliklər, əlavə məşğulluq üçün şəraitin yaradılması ilə əlaqədardır.

Təsərrüfatın aparıcı sahələrində iş yerlərinin az olması və yenilərinin zəif templə yaradılması **ticarət** obyektlərində çalışanların sayı və məşğulluq strukturunda payının artmasına gətirib çıxarmışdır. Cədvəl 2-dəki materialların göstərir ki, 2019-cu ildə iqtisadi rayonun ticarət sahələrində məşğul əhalinin sayı 15,3 min nəfərə (6,3%), o cümlədən kəndlərdə 7,2 min nəfərə, onların məşğulluqda payı 3,9%-ə yüksəlmişdir (AR əhalisinin siyahıyaalınması, 2019). Bu sahələrdə məşğul əhalinin sayı ümumi əhali arasında 2009-cu ildən sonra 5,1 min nəfər, o cümlədən kənd əhalisi arasında 2,7 dəfə artmışdır. Kənd əhalisi arasında məşğulluq strukturunda ticarətin payı da bir o qədər çoxalmışdır. İnzibati rayonlar arasında ticarət kənd əhalisi üçün 3,8-3,9%, İmişli rayonunda 4,9% üçün gəlir mənbəyi rolunu oynayır.

**Tikinti** təsərrüfatın inkişafı üçün aparıcı yer tutur. Ona görə bu sahədə çalışanların sayı da davamlı olaraq artır, məşğulluq strukturunda payı da yüksəlir. 2009-2019-cu illərdə Mil-Muğan iqtisadi rayonu üzrə tikinti sənayesində çalışanların sayı 434 nəfər azalmış, kənd əhalisi arasında 2,0 min nəfərdən çox artım olmuşdur. Cədvəl 2-dəki təhlil göstərir ki, ümumi əhali arasında bu sahədə məşğulluq payı aşağı enmiş, kənd əhalisi arasında 2,2%-dən 3,3%-ə yüksəlmişdir. Bu isə kəndlərdə tikinti işlərinin genişlənməsi, yeni istehsal obyektlərinin yaradılması ilə bağlıdır.

**Sənayedə** də oxşar vəziyyət müşahidə edilir. Ümumi əhali arasında sənaye obyektlərində çalışanların sayı 709 nəfər azalmış, məşğulluqda payı aşağı enmişdir. Kənd əhalisi arasında bu sahədə çalışanların sayı isə az sayda, 232 nəfər artmış (AR əhalisinin siyahıyaalınması, 2019), bu sahənin məşğulluq strukturunda payı qismən yüksəlmişdir. Kəndlərdə sənaye müəssisələrində çalışanların sayının artması ilkin emal müəssisələrinin yaradılması ilə bağlıdırsa, ümumi əhali arasında azalmalar iş yerlərinin ixtisarı və ya bağlanması, yeni obyektlərin zəif templə yaradılması ilə əlaqədardır. Sabirabad rayonunda Sənaye Məhəlləsi fəaliyyətə başlasa da, burada rayonda bu sahədə çalışanların sayında azalmalar qeydə alınır.

**Nəqliyyat və rabitə sahələri** də 2019-cu ildə əhalinin məşğulluğunda əhəmiyyətli yer tutmamışdır, kəndlərdə onlar cəmi 1,7% məşğulluq payına malik olmuşdur.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının yerinə yetirilməsi 2023-cü ildə başa çatmış olsa da, bu istiqamətlərdə tədbirlər davamlı olaraq getmişdir (Eminov Z.N, 2023). Regionlarda müxtəlif təyinatlı istehsal və xidmət obyektləri tikilmiş, yeni iş yerləri açılmışdır (Azərbaycanın regionları, 2023). Onların müəyyən hissəsi kənd məntəqələrində yerləşir və kənd əhalisinin məşğulluğuna əhəmiyyətli təsir göstərir. 2025-ci ilin əvvəli üçün olan məşğul əhalinin sayı və

məşğulluq strukturunun təhlili göstərir ki, 2019-cu ildən sonra bu sahədə müəyyən dəyişikliklər olmuşdur. İlk növbədə kənd təsərrüfatında məşğulluq səviyyəsi azalsa da, aparıcı rolunu saxlayır, sənaye, tikinti, ticarət sahələrinin məşğulluqda payı yüksəlməyə doğru getmişdir. 2025-ci ilin əvvəlində iqtisadi rayonda məşğul olanların sayı 261,7 min nəfər olmuşdur. Onlar ölkədə təsərrüfat sahələrində çalışanların 5,2%-ni təşkil edir. Regionun ümumi əhalisi arasında onların payı isə 49,6% səviyyəsindədir. Bu isə 2019-cu ilə nisbətən yuxarıdır (Azərbaycan Respublikası, DSK, 2023).

*Cədvəl 3*

**Məşğul ümumi əhalinin iqtisadi fəaliyyət sahələri üzrə bölgüsü, 2025, faizlə**

| İnzibati ərazilər | Cəmi məşğul əhali, | O cümlədən təsərrüfat sahələri üzrə | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Kənd və meşə təs-tı, ovçuluq | Sənaye | Tikinti | Ticarət və təmir | Nəqliyyat və rabitə | Xidmət sahələri | Digər sahələr |
| Beyləqan | 100,0 | 58,6 | 3,2 | 4,6 | 6,1 | 2,6 | 19,3 | 5,6 |
| İmişli | 100,0 | 60,0 | 4,8 | 6,9 | 6,7 | 2,6 | 14,1 | 4,9 |
| Saatlı | 100,0 | 62,0 | 4,0 | 4,9 | 6,8 | 3,3 | 14,0 | 5,0 |
| Sabirabad | 100,0 | 65,4 | 3,4 | 4,7 | 6,7 | 2,7 | 12,4 | 4,7 |
| İqtisadi rayon | 100,0 | 61,8 | 3,8 | 5,2 | 6,6 | 2,8 | 14,7 | 5,1 |
| Azərbaycan Res. | 100,0 | 35,4 | 8,1 | 8,0 | 14,3 | 5,3 | 24,9 | 4,0 |

*Mənbə: Azərbaycan Respublikası DSK, 2025 (az stat.gov.az., Əmək bazarı)*

2019-cu ildən sonra iqtisadi rayonun **kənd və meşə təsərrüfatında, ovçuluqda** məşğul əhalinin sayı 3,0 min nəfər azalmış və 161,8 min nəfərə enmişdir. Onlar çalışan ümumi əhalinin 61,8%-ni təşkil etmişdir (Cədvəl 3, Şəkil 2). Nisbi pay göstəricisi də bu dövrdə 5,5 vahid azalmışdır. İnzibati rayonlarda da kənd təsərrüfatında məşğulluq səviyyəsi 65-66% arasında dəyişir ki, bu da region üzrə orta göstəricidən yuxarıdır. İqtisadi rayonda kənd təsərrüfatında məşğul olan əhali inzibati rayonlar arasında aşağıdakı kimi paylanır: Sabirabad rayonunda çalışanların 33,3%-i, İmişlidə 23.2%-i, Saatlıda 22,1%-i, Beyləqan rayonunda 21,4%-i yaşayır (Azərbaycan Respublikası, DSK, 2023)..



| Azərbaycan Respublikası | İqtisadi rayon |
|---|---|

***Şəkil 2. Məşğul kənd əhalisinin iqtisadiyyatın sahələri üzrə bölgüsü, (2025), faizlə***

**Xidmət sahələri** əhalinin məşğulluğunda yüksək rolunu saxlayır, bu sahələrdə çalışanların həm mütləq sayı, həm də məşğulluqda payı davamlı olaraq artır, bu sahənin payı artıq 14,7%-ə yüksəlmişdir (Cədvəl 3). Buna səbəb əhalinin gəlirlərinin artması, istehlak tələbatının yüksəlməsi, yeni xidmət obyektləri şəbəkəsinin yaradılması və iş yerlərinin açılmasıdır. Xidmət sahələrinin şəxsi mülkiyyətə əsaslandığına görə burada yeni obyektlərin yaradılması və özünü məşğulluğun təmin edilməsi asan və ucuz başa gəlir.

**Sənaye** təsərrüfatın aparıcı sahəsi olsa da, Mil-Muğan iqtisadi rayonunda əhalinin məşğulluğunda əsaslı rol oynaya bilmir. Baxmayaraq ki, Sabirabad rayonunda Sənaye Məhəlləsi yaradılmış, Beyləqan rayonunda kənd təsərrüfatı məhsullarının emalı üçün müəssisələri fəaliyyət göstərir, İmişli rayonunda ölkə əhəmiyyətli Şəkər zavodu yerləşir, onunla istehsal əlaqələrinə malik olan bir neçə sənaye obyektləri vardır. Bütün inzibati rayonlarda Pambıqtəmizləmə zavodları işləyir. 2019-cu ildən sonra keçən az vaxtda iqtisadi rayonda sənaye sahələrində məşğul olanların sayı 5,4 min nəfər çoxalmışdır, məşğulluq strukturunda onların payı artaraq 3,8%-ə çatmışdır. Lakin hələ də əksər aparıcı sahələrə nisbətən aşağı hesab olunur.

Məhz əsas sahələrin aşağı məşğulluq göstəriciləri **ticarət** obyektlərinin sayının artmasına, sahənin məşğulluqda payının artmasına gətirib çıxarır. Hazırda ticarətdə məşğul əhalinin 6.6%-i çalışır. Bu ölkə üzrə orta göstəricidən 2,0 dəfə aşağı olsa da, region üzrə yüksək hesab olunur. İqtisadi rayonda tikinti sənayesi, nəqliyyat və rabitədə məşğulluq payı artmış olsa da, aşağı göstəricilər ilə fərqlənir. 2019-cu ildən sonra bu sahədə qismən artım olmuşdur.

**Beləliklə, aparılan təhlillərə əsasən aşağıdakı nəticələri qeyd etmək olar**:

- İqtisadi rayonda təbii-coğrafi şərait, kənd təsərrüfatının pambıqçılıq, heyvandarlıq, şəkər çuğunduru becərilməsi üzrə ixtisaslaşması və onların əsasında emal sənayesi müəssisələrinin fəaliyyəti, İCM, aparılan iqtisadi islahatlar prosesində xidmət sahələrinin şəxsi mülkiyyətə aid obyektlərdə fəaliyyəti təsərrüfat strukturunu və onun nəticəsi kimi əhalinin məşğulluq quruluşunu müəyyən edən amillərdir.

Aparılan iqtisadi islahatlar prosesində kiçik pay torpaqlarına malik kəndli-fermer təsərrüfatları yaradılması aşağı məhsuldarlığa malik kənd təsərrüfatının formalaşmasına səbəb olmuşdur. Bu gün pay torpaqlarına malik olan hər bir kənd əhalisi bu sahədə məşğul əhali kimi qeydə alınır. Ona görə kənd əhalisi arasında kənd təsərrüfatında məşğulluq payı 2009-cu ildə 80,0%-dən yuxarı olmuş, hazırda da 65-66% səviyyəsindədir. XXI əsrində digər təsərrüfat sahələrinin inkişafı bu sahədə məşğul olanların sayının və xüsusi çəkisinin tədricən azalmasına səbəb olmuşdur, buna baxmayaraq məşğulluqda aparıcı rolunu saxlayır.

- Sənaye təsərrüfatın aparıcı sahəsi olmaqla, onun yüngül və yeyinti sənayesi kimi sahələri kənd təsərrüfatı məhsullarının emalına əsaslanır. Onlar şəhərlər, qəsəbələr və iri kəndlərin iqtisadi inkişafı üçün baza rolunu oynayır. Lakin iqtisadi rayonda bu sahələr üzrə müəssisələr şəbəkəsi azdır, istehsal gücü zəif, iş yerləri məhduddur. Sabirabad rayonunda Sənaye Məhəlləsi yaradılsa da, az sayda işçi qüvvəsi çalışır. Nəticədə sənaye əhalinin məşğulluğunda 2-3% paya malikdir, kənd əhalisi arasında bu göstərici daha aşağıdır və zəif templə artır.
- Təsərrüfatın aparıcı və əməktutumlu sahələrinin zəif inkişafı əhalinin, əsasən, ticarətdə məşğul olmasına gətirib çıxarır. 2009-cu ildə bu sahədə məşğulluq payı kənd əhalisi arasında 1,4%, 2019-cu ildə 3,9% olmuşdur. 2025-ci ilin əvvəlində iqtisadi rayon əhalisinin 6,6%-i ticarətdə məşğul olmuşdur. Bu isə 2009-cu ilə nisbətən 57,1% çoxdur.
- İqtisadi islahatlar prosesində xidmət sahələrinə aid obyektlərin böyük əksəriyyəti şəxsi mülkiyyətə keçmişdir. Hazırda da onlara aid yeni obyektlər yaradılması və yeni iş yerlərinin açılması şəxsi mülkiyyətə və vəsaitlərə əsaslanır. Bununla da, özünü məşğulluq təmin edilir. Xidmət və təhsil müəssisələri bütün yaşayış məntəqələrini əhatə edir, əhalinin sayı artsa da, yeniləri zəif templə

yaradılır, kadrlarla təminatda çətinliklər vardır. Buna baxmayaraq xidmət sahələrində məşğulluq və onların payı davamlı olaraq yüksəlir. 2009-cu ildə məşğul əhali arasında bu sahənin payı 9,03% olsa da, 2025-ci ilin əvvəlində 14,7%-ə yüksəlmişdir.

- Mil-Muğan iqtisadi rayonunda əhalinin məşğulluğunun səmərəli strukturuna keçid üçün ilk növbədə yüngül və yeyinti sənayesinin inkişafına nail olmaq, bu sahələri xammal ilə təmin edən kənd təsərrüfatını inkişaf etdirmək, məntəqələrin inkişafının əsas bazası olan nəqliyyat-kommunikasiya və sosial-mədəni xidmət sahələrinin müasir tələblərə və demoqrafik potensiala uyğun təşkili vacibdir.

## ƏDƏBİYYAT


1. Eminov, Z.N. (2022). Aran iqtisadi rayonunda demoqrafik inkişaf problemləri və əhalinin məskunlaşması. Bakı, “Region Press” MMC. 350 s.
2. Azərbaycanın demoqrafik göstəriciləri - 2024. (2025). Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. 640 s.
3. Azərbaycanın əhalisi - 2024. (2025). Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. 134 s.
4. Azərbaycanın regionları – 2023. (2024). Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı. 849 s.
5. Əfəndiyev, V.Ə. (2010). Azərbaycanın iqtisadi və sosial coğrafiyası. Bakı, BDU nəşriyyatı. 496 s.
6. AR əhalisinin siyahıyaalınması. 2009-cu il. (2011). DSK. Statistik məcmuə. XIII cild. Məşğul əhalinin iqtisadiyyatın sahələri üzrə bölgüsü. Bakı. DSK. 725 s.
7. AR əhalisinin siyahıyaalınması - 2019, XIV cild. Məşğul olan əhalinin yaşa və yaş qruplarına görə iqtisadi fəaliyyət növləri üzrə bölgüsü. (2022). Bakı: Dövlət Statistika Komitəsi. 805 s.
8. Eminov, Z.N, (2021). Azərbaycan Respublikasında kəndlərin demoqrafik inkişafı və kənd əhalisinin məskunlaşması problemləri. Bakı, “OPTİMİST” MMC. 552 s.
9. Azərbaycan Respublikasının coğrafiyası. II cild. (2015). İqtisadi, sosial və siyasi coğrafiya. Bakı, 327 s.
10. Azərbaycan Respublikasının coğrafiyası. (2015). III cild. Regional coğrafiya. Bakı. 400 s.
11. Eminov, Z.N, (2021). Azərbaycan Respublikasında kəndlərin demoqrafik inkişafı və kənd əhalisinin məskunlaşması problemləri. Bakı: “Optimist” MMC. 552 s.
12. 2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası. (2018). Bakı, 18 oktyabr.
13. Bədəlov E.S, (2016). Abşeron iqtisadi-coğrafi rayonunda sosial-demoqrafik problemlər və məskunlaşma məsələləri. Bakı, “Avropa” nəşriyyatı, 199 s.
14. Eminov, Z.N. (2005). Azərbaycanın əhalisi. Bakı. Çıraq. 560 s.
15. Eminov, Z.N. (2023). Azərbaycan Respublikasının sosial-demoqrafik inkişafı və məşğulluq problemləri. “CN Poliqraf” MMC, Bakı, 451 səh.
16. Hacızadə, Ə.M. (1965) Azərbaycan SSR əhalisi və onun məskunlaşması. Bakı, 216 s.
17. Mehrəliyev, E.Q., Əyyubov N.H., Sadıqov M.O. (1988). Azərbaycan SSR-də əhalinin məskunlaşması məsələləri. Bakı, Elm. 196 s.
18. Məmmədov R.H. (1989). Azərbaycan SSR-in respublika daxili iqtisadi rayonları. Bakı. Maarif, 240 s.
19. Muradov Ş.M. (1987). Azərbaycan SSR əmək ehtiyatları. Bakı. 260 s.
20. Muradov Ş.M. (2004). İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı, Elm. 660 s.
21. Nadirov A.A. (1976). Azərbaycanda sənayenin səmərəli yerləşdirilməsinin iqtisadi problemləri. Bakı. Elm. 250 s.

22. Paşayev N.Ə., Əyyubov N.H., Eminov Z.N. (2010) Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası. Bakı. Çıraq, 416 s.
23. Azərbaycan Respublikası DSK. (2025)

## ABSTRACT

## EMPLOYMENT STRUCTURE OF THE POPULATION IN THE MIL-MUGHAN ECONOMIC REGION AND ITS EFFECTIVE ORGANIZATION WAYS

**Musa Valiyev**

The information of the employment structure of the population is determined by the development of economic sectors and the number of people working in these sectors. At the same time, the level of development of the economy also shows itself as one of the leading factors.

The leading place of rural settlement in the regions and the development of agriculture lead to the fact that the sectors related to it also occupy a leading place in employment. The reforms carried out to eliminate the difficulties that began in the first years of independence have not yet been able to have a serious impact on the employment structure in the regions. For many years, agriculture has occupied a leading place in employment, although this sector provides a small part of gross domestic product. Therefore, in order to organize an effective employment structure, it is an important task to increase the importance of labor-intensive sectors such as light and food industries, service sectors, create a network of new facilities and create conditions for increasing the number of jobs in the regions, including the Mil-Mugan economic region. The development of scientific and theoretical foundations for measures in this direction is also of great importance. In the process of conducting the analysis, the importance of providing the population with jobs in the economic region is indicated, the importance of their compliance with the demographic potential, the role of measures aimed at constantly restructuring its structure, and the distribution of newly opened jobs across economic sectors are determined.

The article presents proposals for restructuring the employment structure.

**Keywords:** *employment structure, labor resources, economic region, agriculture, economic reforms.*

## РЕЗЮМЕ

## СТРУКТУРА ЗАНЯТОСТИ НАСЕЛЕНИЯ В МИЛЬМУГАНСКОМ ЭКОНОМИЧЕСКОМ РЕГИОНЕ И СПОСОБЫ ЕЕ ЭФФЕКТИВНОЙ ОРГАНИЗАЦИИ

**Муса Валиев**

Формирование структуры занятости населения определяется развитием экономических секторов и количеством людей, работающих в этих секторах. При этом уровень экономического развития также выступает в качестве одного из ведущих факторов.

Ведующее место сельского населения в регионах, развитие сельского хозяйства приводит к ведущему месту связанных с ним секторов в сфере занятости. Реформы, проведенные для преодоления трудностей, начавшихся в первые годы независимости, пока не оказали серьезного влияния на структуру занятости в регионах. На протяжении многих лет сельское хозяйство является основным сектором занятости, хотя этот сектор обеспечивает лишь небольшую часть валового внутреннего продукта. Поэтому для организации эффективной структуры занятости важно повысить значимость трудоемких секторов, таких как легкая и пищевая промышленность, сфера услуг, а также создать условия для расширения

сети новых предприятий и увеличения количества рабочих мест в регионах, в том числе в Миль-Муганском экономическом регионе. Большое значение также имеет разработка научно-теоретических основ мер в этом направлении. Исследование показывает важность обеспечения населения рабочими местами в экономическом регионе, важность их соответствия демографическому потенциалу, роль мер, направленных на перманентную перестройку его структуры, а также определяет распределение вновь открытых рабочих мест по секторам экономики.

В статье разработаны предложения по перестройке структуры занятости.

**Ключевые слова:** *структура занятости, трудовые ресурсы, экономический регион, сельское хозяйство, экономические реформы.*